# Dünyanın ən mötəbər beynəlxalq tədbiri

## COP29-a layiqli evsahibliyi Azərbaycanın növbəti qlobal nailiyyəti kimi tarixə düşəcək

**Bu gün Azərbaycan dünyanın mötəbər qurumlarında uğurla təmsil olunur, qlobal çağırışlara fəal şəkildə qoşulur və beynəlxalq miqyaslı problemlərin həllinə mühüm töhfələr verir.**

Xalqımızın Şuşa və Xankəndi zəfərləri sayəsində regionda yaranan yeni reallıqlar Azərbaycanı getdikcə həm də nüfuzlu beynəlxalq mərkəzə çevirir. Buna ölkəmizdə ardarda keçirilən mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlər də əyani nümunədir. Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Avroviziya", eləcə də Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə bu çərçivədə ölkəmizdə həyata keçirilən SPECA-nın Zirvə görüşü, Beynəlxalq Astronavtika Konqresi kimi mühüm tədbirlər də bu qəbildəndir.

Bu il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi də bu baxımdan müstəsna əhəmiyyət daşıyır. Qonaqlarının sayı baxımından dünyanın ən böyük tədbiri olan COP29-a Bakının evsahibliyi etməsinə isə ötən illər ərzində dövlətimizin həyata keçirdiyi hərtərəfli inkişaf strategiyası, beynəlxalq arenada yürütdüyü diplomatik siyasət sayəsində nail olunub.

## Azərbaycanın töhfəsi

70-100 min iştirakçının qatıldığı bu cür böyükmiqyaslı bir tədbirə Bakının evsahibliyi etməsi ölkəmizə beynəlxalq inamın göstəricisi, eyni zamanda Azərbaycanın dünyaya uğurlu təqdimatıdır.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar beynəlxalq ictimaiyyət tərəfindən yekdil qərar verilib. Bu böyük etimadın özü də ölkəmizə göstərilən hörmətin təzahürü, həmçinin də qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasına bariz göstəricidir.

Bakıda keçiriləcək COP29 həm də Azərbaycana qarşı qərəzli siyasət yürüdən bəzi ölkə və təşkilatlara tutarlı cavabdır. Bu, göstərir ki, beynəlxalq təşkilatlar vasitəsilə Azərbaycana siyasi, iqtisadi təzyiqlər göstərilməsi üçün dəridən-qabıqdan çıxan Azərbaycanofob ölkə və qurumların cəhdləri boşa çıxır.

Faktdır ki, COP29-a Azərbaycanın evsahibliyi etməsinə də həmin qərəzli ölkələr əngəl törətməyə çalışırdılar. Səsvermə ərəfəsində bir çox ölkəyə təzyiqlər göstərirdilər ki, Azərbaycana səs verməsinlər, ancaq burada da məğlubiyyətlə üzləşdilər. Azərbaycan yekdil qərarla COP29-a ev sahibi seçildi.

Bu da bir daha göstərdi ki, mənfurların səylərinə baxmayaraq, Azərbaycanın yüksələn inkişafı, əldə etdiyi qələbələr sayəsində ərazisini təhlükəsiz məkana çevirməsi dünya ölkələrinin diqqətini xüsusi cəlb edib və bu möhtəşəm nailiyyətlər, uğurlar beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir.




## Yaşıl ölkə

Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü olaraq hər zaman iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması işinə öz töhfəsini verir.

Xatırladaq ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib.

Bu baxımdan Prezidentin sərəncamı ilə Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də təsadüfi deyil.

Onu da bildirək ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Həmçinin ölkəmiz dünyada "yaşıl enerji"nin inkişaf etməsinə birbaşa töhfələr verir, bunun üçün mühüm təşəbbüslərlə çıxış edir.

Dünyanın sayılıb-seçilən, nüfuzlu ölkəsi olan Azərbaycan mötəbər beynəlxalq tədbirlərə yüksək evsahibliyi etmək kimi müstəsna fəaliyyəti ilə də daim diqqət çəkir. COP29 da dünyanın bir nömrəli beynəlxalq tədbiridir və Azərbaycanın növbəti qlobal nailiyyəti kimi tarixə düşəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.-2024.- 17 yanvar, № 9.- S.7.